

# ŞƏHADƏTİN ZƏFƏR YOLU

***Ey şəhid oğlu şəhid, istəmə məndən məqbər,***
***Sənə ağuşunu açmış duruyor peyğəmbər.***

**Mehmet Akif Ersoy**

**20 Yanvar 1990-cı il.**

Şəhadətindən doğulan Azərbaycanın (və Azərbaycan Xalqının) təvəllüd tarixi.

Azərbaycan xalqı bu tarixdə öz məqsədini və həqiqi amalını – həqiqət, ləyaqət, şərəf, heysiyyət, azadlıq... kimi dəyərlərin mükəmməl mahiyyətini zamanın, cəmiyyətin mütləq əhəmiyyətli statusu səviyyəsində bərqərar etməklə, Xeyirlə Şərin əbədi qarşıdurma meydanında sabitqədəm mövqeyini və tərəfini bir daha bəyan etdi. Bu xalqı anlamaq istəmədilər, bu niyyəti yanlışa yozdular. Yaranışdan Xeyirə və xeyirxahlığa köklənmiş bu xalq isə, hər şeydən əvvəl, Cəzanı ona abidə qoymaqla "cəzalandırdı": Şəhidlər Xiyabanı qəsbkarlığa, imperiya maraqları naminə öz dinc vətəndaşının qanını tökməkdən çəkinməyən hərbi xunta rejiminə ittihamın daş sükutudur. Şəhidlər Xiyabanı həm də bir Yol abidəsidir. Zamanı yadda saxlayan və onu daşıyan bu Yol müqəddəs Oda, Üfüqə, Səmaya və Əbədiyyətə qarışır. Bakının ən uca nöqtəsindəki məşəl həm də bunu rəmzləndirir.

Şərə müqavimət hissinin təlqini ilə Şərin qarşısına əliyalın çıxanların məğrur duruşlu mərmər sıraları bu birlik qarşısında həqiqi ehtiramla baş əyənlərə həm də onu xatırladır ki, bizim hər birimizin daxilində dərk etdiyimizdən qat-qat artıq güc və imkan var. Yetər ki, bu gücü və imkanı milli

birliyimizin, coğrafi və mənəvi bütövlüyümüzün qəsdinə duran Şərə qarşı birləşdirə bilək.

Fərdlərin gücü, iradəsi, düşüncəsi və birliyi milləti Şəxsiyyət ucalığında saxlayır.

İslam Sadığın “20 Yanvar” poeması Xiyaban sakinlərinin hər birinin adını-enerjisini bədii sözün enerjisinə ötürmək niyyətindən yaranıb. Yüzlərlə yazıçı və şairimizin Vətənin istiqlal və istiqbalı uğrunda canını fəda etmiş 20 Yanvar şəhidlərinin xatirəsinə həsr etdiyi bədii-publisistik mətnlər bundan sonra da yazılacaq... Onların hər birinin adı, ideal və arzuları ədəbi yaddaşımızda dönə-dönə mövzu olacaq. Ən əsası da odur ki, bundan belə - 31 il sonra azad olmuş ruhlar səltənətində - bu Şəhidlər Xiyabanında Azərbaycanın hər bir vətəndaşı açıq alınla, şax yerişlə addımlaya biləcək və işğaldan azad olunmuş Qarabağın zəfər müjdəsini burada uyuyan müqəddəs ruhlara dua kimi pıçıldayacaq, mübarək məzarları çiçək kimi süsləyəcək.

Müəllif kitab kimi düşündüyü bu poemada heç bir 20 Yanvar şəhidinin adını unutmayıb, xatirəsini diqqətsiz qoymayıb. Jurnalın imkanları çərçivəsində, bu poemanın ixtisarla dərcini oxucularımızın diqqətinə təqdim etməklə, Vətənin bütövlüyü, azadlığı uğrunda şəhid olan, vuruşan, döyüşən hər bir Vətən övladına böyük ehtiramımızı bildiririk.